**ƏMR**
**№ F-19**

Bakı şəhəri

12 fevral 2021-ci il

İqtisadiyyat Nazirliyində "Uğur yolu" müsabiqəsinin təşkili haqqında

"Dövlət qulluğu haqqında" Azərbaycan Respublikası Qanununa və "Dövlət vergi orqanlarında xidmət haqqında Əsasnamə"yə uyğun olaraq, İqtisadiyyat Nazirliyində rəhbər vəzifələrin tutulması üçün yüksək potensiallı ehtiyat kadrlar bazasının formalaşdırılmasında mövcud potensialın səmərəli istifadəsinin, kadrların düzgün seçilməsi və yerləşdirilməsinin, peşəkarlıq səviyyəsinin artırılmasının, rotasiyasının, hərtərəfli inkişaf üçün şəraitin yaradılmasının təmin edilməsi, eləcə də idarəetmə sahəsində təcrübə mübadiləsinin təşkil edilməsi məqsədilə "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi haqqında Əsasnamə"nin 5.5.13-cü yarımbəndini rəhbər tutaraq

əmr edirəm:

1. İqtisadiyyat Nazirliyində "Uğur yolu" müsabiqəsi (bundan sonra – Müsabiqə) təsis edilsin.

2. Müsabiqənin keçirilməsi məqsədilə aşağıdakı tərkibdə Komissiya yaradılsın:

Komissiyanın sədri:

Elnur Əliyev – iqtisadiyyat nazirinin müavini.

Komissiyanın üzvləri:

Orxan Nəzərli – Dövlət Vergi Xidmətinin rəis müavini, rəis vəzifəsinin müvəqqəti icraçısı;

Mətin Eynullayev – Əmlak Məsələləri Dövlət Xidmətinin rəis müavini, rəis vəzifəsinin müvəqqəti icraçısı;

Sahib Məmmədov – Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin rəis müavini, rəis vəzifəsinin müvəqqəti icraçısı;

Amil Əlili – Aparat rəhbərinin müavini;

Hüseyn Əliyev – iqtisadiyyat nazirinin müşaviri;

Emil Məcidov – iqtisadiyyat nazirinin müşaviri;

Sevinc İsmayılova – İnsan resursları şöbəsinin müdiri.

3. Komissiyanın öz fəaliyyətini aşkarlıq və şəffaflıq prinsipləri əsasında həyata keçirməsi təmin edilsin.

Azərbaycan Respublikasının
İqtisadiyyat Nazirliyi

ƏSLİ İLƏ DÜZDÜR

4. Komissiyanın cari fəaliyyətinin təşkili məqsədilə Katiblik funksiyasının həyata keçirilməsi İnsan resursları şöbəsinə həvalə edilsin.

5. İnsan resursları şöbəsinin müdiri Sevinc İsmayılovaya və Maliyyə və təminat şöbəsinin müdiri İsmayıl Aslanova tapşırılsın ki, zərurət yarandığı təqdirdə Komissiyanın fəaliyyətinə və işinin təşkilinə ekspertlərin "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun olaraq ödənişli və ya ictimai əsaslarla cəlb edilməsini təmin etsinlər.

6. Hüquq şöbəsinin müdiri Tural İsgəndərova tapşırılsın ki, cəlb edilən ekspertlərlə birgə müsabiqə qaydalarının işlənərək hazırlanmasını və təsdiq edilməsini təmin etsin.

7. Elektron idarəetmə şöbəsinin müdiri Sədiyar Əlibəyova tapşırılsın ki, müsabiqənin təşkili və keçirilməsinin bütün mərhələlərinin elektron həllər və proqram təminatını təşkil etsin.

8. Maliyyə və təminat şöbəsinin müdiri İsmayıl Aslanova tapşırılsın ki, müsabiqənin maliyyələşməsinin Nazirliyin büdcədənkənar vəsaiti hesabına həyata keçirilməsini və bu əmrdən irəli gələn digər məsələlərin həll olunmasını təmin etsin.

Əsas : iqtisadiyyat nazirinin müavini Elnur Əliyevin 25.12.2020-ci il tarixli İN-D/Y-31554/2020 nömrəli xidməti məruzəsi.

Nazir Mikayıl Cabbarov

Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi * SƏNƏDLƏRLƏ VƏ VƏTƏNDAŞLARIN MÜRACİƏTLƏRİ İLƏ İŞ ŞÖBƏSİ

Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi

ƏSLİ İLƏ DÜZDÜR